**UOT 327**
**https://doi.org/10.59849/2710-0820.2024.2.178**

**İlkin Əhmədzadə**
*Bakı Dövlət Universitetinin doktorantı*
*Azərbaycan*
*diplomatd325@gmail.com*

# TERRORİZM CƏMİYYƏTİN SOSİAL-SİYASİ ZİDDİYYƏTLƏRİNƏ MÜQAVİMƏTİN AKTİV FORMASI KİMİ

***Açar sözlər:*** *terrorizm, sui-qəsdçilik, müharibə, münaqişə, ziddiyyət, anti-terror siyasəti, elmi-nəzəri yaanaşma, rəqiblərə qarşı mübarizə forması, ədalətsizliyə müqavimət, anarxizm, müstəmləkə işğalları, soyqırım.*

**GİRİŞ.** Müasir dövrdə beynəlxalq terrorizmə qarşı aparılan mübarizənin səmərəliliyi ona qarşı necə və hansı üsul/vasitələrdən istifadənin əhəmiyyətini bilməyi və tətbiq etməyi zəruri etmişdir. Buna isə terrorçuluğun inkişaf tarixini bilmək və ümumiləşdirmələri aparmaq yolu ilə, habelə tarixi təcrübədən çıxış edərək ümumi strategiya və taktika hazırlamaqla nail olmaq mümkündür. Beynəlxalq münasibətlərin hazırkı qarışıq və müharibə/münaqişələrin dünya birliyini parçaladığı dövrdə belə xarakterli tədqiqatların aparılmasını yersiz hesab edənlər fikrimizcə səhv edirlər. Hazırda müharibə aparan və münaqişələr yaşayan bütün dövlətlər beynəlxalq terrorizmlə mübarizə adı altında öz irticaçı istəklərini pərdələyir, lakin istəyib-istəməməklərindən asılı olmayaraq teerrora qarşı mübarizənin kollektiv əsasları ilə bağlı elmi-nəzəri bilgilərin praktiki əsaslarını yaradırlar. Müharibələr və münaqişələr daimi deyil, amma təcrübə göstərir ki, terrora qarşı mübarizə davamlı şəkildə aparılmalıdır. Məqalədə bu baxımdan terrorçuluq fəaliyyətinin inkişaf tarixi izlənir və ümumiləşdirmələr aparılır ki, bunun anti-terror fəaliyyətinin təşkili və həyata keçirilməsi baxımından praktiki əhəmiyyəti var.

Müasir siyasi və beynəlxalq hüquqi fikirdə terror fəaliyyətinə ilk dəfə nə zaman müraciət edilməsi ilə bağlı fərqli yanaşmaların olmasına, müxtəlif fikirlərin irəli sürülməsinə baxmayaraq bu fenomenin bəşəriyyətin yaşıdı olması şübhəsizdir. Belə ki, insanlığa məlum olan ilk terror aktı kimi ilk peyğəmbər olan Adəm övladlarından Habilin Qabil tərəfindən öldürülməsi göstərilirdi. “Qurani-Kərimdə” bu qətlin başlıca nəticəsinin sonradan zaman-zaman insanların qanının tökülməsi, fitnə-fəsadların yayılması olacağı göstərilirdi. Təsadüfi deyildi ki, çox tezliklə müharibələr bəşəriyyətin “cığırdaşına” çevrilmiş, münaqişələr, ziddiyyətlər, toqquşmalar bəşəriyyətin mövcudluğunu təhdid etməyə başlamışdı. Bəzi tədqiqatçıların fikrincə, terrorizmin tarix qədər qədim olduğu deyilsə də, əsl mənada terror siyasi baxışların ziddiyyətlərə bölünməsi, terror hadisələrini anons etmək üçün kütləvi informasiya vasitələrinin inkişafı, bəşəriyyətin zorakılıq əməllərinə rəğbət bəsləməsi zamanı yaranmış, siyasi yollarla öz hüquqlarına nail ola bilməyən qrupların mübarizə üsuluna çevrilmişdi [9, s.142]. Politoloji təhlil göstərir ki, terrorçuluğu ictimai ədalətsizliklərə qarşı mübarizə yolu kimi seçən bütün bu insanları birləşdirən ümumi psixoloji cəhət - nifrət, təlqin, özünün haqlı olduğuna əminlik və məcburiyyət, varlanmaq ehtirası, şübhəlilik, hakimiyyət hərisliyi və s. kimi məqamlardır.

Terrorçuluğun inkişafı tarixinin elmi-siyasi və praktiki analizi onun nə qədər gərgin, qanlı və əzablı mübarizə yolu olduğunu deməyə əsas verir. Əgər müasir mənada terror anlayışının ılk olaraq 1789-cu il burjua inqilabı dövründə Fransada istifadə edildiyini qəbul etsək də, bu hadisəyə qədər saysız-hesabsız miqdarda sui-qəsd taktikasından istifadə yolundan bəhs edən və müxtəlif qaynaqlarda öz əksini tapan hadisələri sıralaya bilərik. Bu mənada terrorizmi yalnız XX əsrlə bağlayan bir sıra tədqiqatçıların fikrini obyektiv hesab etmirik. Fikrimizcə, terror siyasi düşüncədə parçalanmaların olduğu dövrlərdən bəri mövcuddur və onun tarixini si-

vilizasiyaların mərhələlərinə uyğun şəkildə dövrləşdirə bilərik. Bir sıra türk tədqiqatçıları, o cümlədən K.Akmaral [1, s.26-68], Y.Altunğ [2, s.35-64], M.Z.Varol [8, s.37-39], rusiyalı müəlliflərdən E.Davudova [10, s.23-29], O.Kolobova [18, s.210-216], N.A.Çernyadyeva [19, s.43-78] və başqaları terrorizmin inkişafı tarixini əsasən dörd mərhələyə bölərək araşdırmağı məqsədəuyğun hesab edirdilər. İlk mərhələ kimi, antik çağlardan XVIII əsr Fransa burjua inqilabina qədərki dövr götürülürdü. Bu müəlliflər tipologiya, forma və xüsusiyyətlərinə görə, İkinci mərhələ kimi dünya müharibələrinə qədərki dövrü, üçüncü və dördüncü mərhələ kimi isə soyuq savaş və sonrakı dövrü götürürdülər. Qeyd edək ki, bütün mərhələlərdə terrorizmin mübarizə vasitə, üsul və formaları kəskin dəyişiklikləri ilə səciyyələnsə də, mahiyyət və məzmunca dəyişməmişdi: hədələmək, qorxutmaq, qan tökmək, öldürmək, fiziki baxımdan məhv etmək və s. kimi üsullardan istifadə yolu ilə həyata keçirilirdi.

Məlum olduğu kimi, müasir politoloji tədqiqatlarda ABŞ-da 2001-ci il sentyabrın 11-də baş vermiş terror aktları terrorçuluğa qarşı mübarizənin yeni mərhələsinin başlanğıcı kimi götürülürdü. Məhz həmin tarixdən başlayaraq beynəlxalq terrorizmlə mübarizə ümumplanet xarakteri almağa başlamışdı. Terrorizmə qarşı mübarizədə Yaxın Şərqin hədəf seçilməsi ABŞ-ın uzağagedən məqsədlərindən xəbər verirdi. Bu regionda başlıca müttəfiqi ABŞ olan Türkiyə beynəlxalq terrorizmlə mübarizədə mühüm rol oynamağa başlamışdı. ABŞ-ın Əfqanıstan və İraqdakı antiterror əməliyyatları puça çıxdıqdan sonra regionda Rusiya, Türkiyə, İran və Çinin mövqeləri möhkəmlənməyə başladı ki, bu ABŞ-ın qlobal hegemonluq erasının bitməkdə olduğunun göstəricisi, eyni zamanda çox qütblü dünya nizamının formalaşmaqda olduğunun müjdəçisi idi.

Antik və erkən orta əsrlərə aid qaynaqlarda sui-qəsdçilərə qarşı hakimiyyət dairələrinin apardığı mübarizə ilə bağlı çoxsaylı fraqmentlərə rast gəlmək mümkündür. Tədqiqatçılardan Y.Altunğ terror fəaliyyətinin meydana çıxması və genişlənməsini eramızın XI əsrinə aid edirsə [2, s.38], rus müəlliflərindən N.Çernyadeva terrorçuluq hərəkatlarının yaşını bir neçə min il əvvəllərə aparırdı [19, s.46]. Tarixdən məlum olan erkən terror hadisələrindən biri Roma imperatoru Sezarın eramızdan əvvəl 44-cü ilin martında oğlluğu Brutun da daxil olduğu gizli bir təşkilat tərəfindən öldürülməsini qeyd edə bilərik [11, s.313-314].

Antik dövrlərdə cəmiyyəti birbaşa hədəfə alan terror hadisələrinə yəhudi zelotlarının (üsyançı qrupların) üzvlərinin eramızın I əsrin ortalarında romalılara qarşı törətdikləri əməlləri göstərə bilərik. Doğrudur, zelotlar bunun cəzasını aldılar, belə ki, romalılar bu qrupun 2000-dən çox üzvünü çarmıxa çəkərək məhv etmişdilər. Bununla da, Romaya düşmən qüvvələrin güc tətbiq etməklə və öldürməklə həyata keçirdikləri terror aktlarına bir müddət üçün son qoyuldu. Zelotlar üsyanının ağırlıq mərkəzi Roma imperiyasının Yaxın Şərq əyalətlərində genişlənməyə başladı ki, üsyançılara Sicari adlı təşkilat rəhbərlik edirdi. Sicarilər öz fəaliyyətlərinə eramızın 68-ci ilində Zelotların bir alt qrupu olaraq başlamışdılar. Əksər tədqiqatçılar tərəfindən terror hərəkatı hesab edilən təşkilat indiki İsrail ərazisində sülhsevər mötədil yəhudilərə qarşı aksiyalar həyata keçirməkdə idilər [2, s.54].

İlk terrorçu qruplaşmalardan hesab edilən Sicari təşkilatı eramızın I əsrində Fələstində (İudeyada) yaşayan fanatik din adamları tərəfindən yaradılmışdı. Təşkilat üzvləri Səfəvi dərvişləri kimi paltarlarının altında gizlətdikləri silah gəzdirirdilər ki, bu silah “sica” adlı xəncər növü idi. Mənbələrə görə, romalilarla əməkdaşlıq edən, eyni zamanda onlara qarşı vuruşan sicarilər insanların sıx olduğu yerlərdə fürsət taparaq düşmənlərini öldürür və cəmiyyətə qarışaraq asanlıqla izi itirirdilər. Bu təşkilatın üzvləri monastırları, Qüdsün su kanallarını, buğda anbarlarını zədələmiş, sələmçi sənədlərini və dövlət arxivlərini məhv etmişdilər. Qaynaqlara və Siçari hərəkatının tədqiqatçılarına görə, onlar millətçi baxışlara və özlərinə məxsus dini görüşlərə malik olub varlılara qarşı yoxsulları qoruyan bir ideyaya əsaslanaraq fəaliyyət göstərirdilər. Siçariləri oğru və əmlak hərisi kimi qələmə verənlər də var idi. Sicarilər bütün hallarda radikal görüşləri ilə seçilir, mötədil siyasətçiləri hədəfə götürür, kasıbları zənginlərə qarşı qızışdırmaqla cəmiyyətdə qorxu və vahimə yaradırdılar. Hətta bəzi qaynaqlarda onlar şəxsi maraqları naminə quldurluq edən insanlar

kimi xarakterizə edilir, vətənpərvərliklərinin, azadlıq tələblərinin sadəcə ideoloji pərdə olduğu göstərilirdi. Klassik döyüşdən fərqli xüsusiyyətlərə malik olan və psixoloji müharibə kimi davam edən sicarilər kiçik qruplarla bir növ partizan müharibəsi taktikası yeritməklə romalı məmurları qorxu və təşviş içində saxlayırdılar. Siçarilər onlar kimi Roma hökmranlığına müqavimət göstərməyən və zorakılıq tətbiqini bəyənməyən öz xalqlarının nümayəndələrinə qarşı da qəddarlıq edirdilər. Təsadüfi deyildi ki, Roma hakimiyyət orqanları onlara qarşı cəza tədbirləri həyata keçirərkən eyni dərəcədə qəddarlıq edirdilər [15, s.478]. Lakin sicarilər Roma hakimiyyət orqanlarına qarşı mübarizədə kifayət qədər zəif idilər.

İslam dininin tarixində də terrorçuluq əməlləri ilə bağlı çoxsaylı qətllərlə nəticələnən hadisələrə rast gəlmək mümkündür. Ərəb xəlifələrindən Ömər, Osman və Əli sui-qəsdçilər tərəfindən öldürülmüşdülər. Xilafətdə meydana gələn ilk terror hərəkatı Xaricilər (ərəbcə "xəvaric" sözünün cəm forması - "çıxıb gedənlər" mənasındadır) olmuşdur. Xaricilər xəlifənin xalq tərəfindən seçilməsi ideyası uğrunda mübarizə aparırdılar. İbn Vəqqasın başçılığı altında İslam ordusundan ayrılan 12 min nəfərlik qrup öz ideyalarını həyata keçirmək üçün terrorçuluq taktikasından geniş istifadə etsələr də, açıq döyüşlərdə həmişə məğlub olmuşdular. Məlum olduğu kimi, 657-ci ilin iyulunda üç ay davam etsə də nəticəsiz başa çatan Sıffin döyüşündən sonra xəlifə Əli ilə Müaviyənin razılaşmasına etiraz edən xariclər İslam ordusundan ayrıldıqdan sonra bir sıra sui-qəsdlər təşkil etmiş, onların nümayəndəsi olan İbn Mülcım xəlifə Əlini öldürmüşdü ki, bununla da İslamda "qanuni xəlifələr" dövrü başa çatmışdı [5, s.51-54].

Tarixdə dini hərəkat kimi meydana çıxan digər bir terror qruplaşması eramızın 11-13-cü illərində əsası qoyulan Batinlər ("gizli" mənasında) hərəkatıdır. Bu hərəkat XIII əsrdə monqollar tərəfindən məhv edilənə qədər Suriyaya qədər Yaxın Şərqin müxtəlif ölkələrinə yayılmış, Alamut qalasında möhkəmlənərək terrorçuluq yolu ilə bir çox yüksək rütbəli məmurları, canişinləri, xəlifələri, səlcuq rəhbərlərini, hətta Qüdsün Səlibçi Kralı Montferratlı Konradı öldürmüşdülər. Onların ilk liderlərindən biri Həsən Səbai və ya daha çox Həsən Sabbah kimi tanınan şəxs olmuşdu. Səbbah Səlcuq hökmdarının vəziri Nizamülmülkün yaxın dostu olduğuna görə, saraya dəvət edilmiş və burada öz istedadı ilə böyük nüfuz qazanmışdı. Lakin Nizamülmülklə toqquşan Səbbah saraydan qovulmuş və canını qurtarmaq üçün əvvəlcə Bağdada, oradan isə Misirə qaçmalı olur. Səlcuq xanədanından və baş vəzirdən intiqam almaq üçün Misirdə gizli İsmaili sui-qəsdçi təşkilatı yaradan Həsən Səbbah öz qüvvələri ilə 1090-cı ildə Qəzvin yaxınlığındakı Ələmut qalasını ələ keçirərək buranı iqamətgahına çevirmişdi [6, s.10-21]. Açıq döyüşdə düşmənlə vuruşmaq üçün çox zəif olduğunu bilən Səbbah kiçik və nizam-intizamlı bir qüvvə tərəfindən həyata keçirilən planlı, sistemli, uzunmüddətli terror hərəkatının təsirli bir siyasi silah olduğunu anlayır, üzvlərini də buna uyğun olaraq təşkilatlandırdı. Tarixdə terrordan ilk dəfə olaraq mütəşəkkil bir siyasi alət kimi istifadə edən İsmaililər Səlcuq sultanı Məlikşahı, onun baş vəziri Nizamülmülkü və bir sıra şahzadələri terror yolu ilə ortadan götürmüşdülər. Tədricən qüvvətlənən Səbbah bəzən səlcuqlarla açıq döyüşlərə də gedirdi.

Hasan Sabbah islam ideoloqu kimi terror hərəkətlərini dini baxımdan özünün əsaslandırdığı təlimata uyğun istiqamətləndirirdi. O, dünyanı Allahın istədiyi şəkildə yenidən yarada və nizamlaya biləcəyi fikri ilə tərəfdarlarını ınandırmış və buna uyğun fəaliyyət göstərmişdi. Onun nizami ordular əvəzinə “fədailər”dən ibarət yaratdığı qruplar Yaxın Şərq ölkələrində böyük nüfuz sahibi idilər. Fədailər terror taktikalarını həyata keçirərkən cəsarətli olmaq üçün narkotikadan - "xaş-xaşdan" istifadə etdirdilər ki, buna görə xalq içərisində onları "assassinlər" adlandırırdılar. Həsən Sabbah əqidəcə qəddar şəxslərdən biri idi, biri qətldə, digəri isə sərxoşluqda ittiham olunan iki övladını edam etməkdən belə çəkinməmişdi. Onun belə amansızlığı bütün təşkilatın fəaliyyətində də öz əksini tapmışdı. Tədqiqatçılara görə, "Alamut bouncerləri" bugünkü bəzi terror təşkilatlarına nümunə ola biləcək bir təşkilati quruluşa malik idilər. Tədqiqatçılara görə, onun yaratdığı terror sisteminin təcrübəsi üzərində bu günə qədər çoxsaylı təşkilatlar formalaşmışdır [6, s.22-23].

Terrorçuluğun tarixi ilə bağlı sənəd və materialların öyrənilməsi göstərir ki, heç bir xalq

və dövlət bu təhlükədən sığortalanmamışdır. Hansı ad altında törədilməsindən, harada və necə törədilməsindən asılı olmayaraq ölümlə, qorxu və vahimənin yayılması ilə nəticələnən hər hansı əməl terrorizmin təzahür formasından başqa bir şey deyildir. Terror tarixində yer alan təşkilatlardan biri də Hindistandakı Tug sektasıdır. Bu sektanın ideologiyası Hind ilahəsi Kaliyə qurban kəsilməsi ayinidir. Belə ki, Tuggee inancına sadiq olan "quldurlar" təsadüfi seçdikləri qurbanlarını ipək kəndirlə boğub öldürür, onun əmlakını ələ keçirirdilər. Bəzi tədqiqatçılar onların terror təşkilatı olmadıqlarını iddia etsələr də, dolanışıqlarını insanları öldürməklə və soymaqla təmin edən bu sektaya terrorçudan başqa bir ad vermək mümkün deyildir. Onların konkret siyasi məqsəd güdmədikləri iddiası isə obyektivlikdən uzaqdır. Bu sektanın üzvlərinin Hindistan hakimiyyəti tərəfindən təqib edilməsi onların cəmiyyətdən təcrid edilməsinə istiqamətlənmişdir [4, s.108].

Tədqiqat prosesində toplanmış materiallara əsasən terror əməllərinin törədilməsində və terrorizmə qarşı mübarizədə sivilizasiyalı xristian Avropasının təcrübəsinin əhəmiyyətini fərqli məqamlardan dəyərləndirmək mümkündür. Qədim, orta əsrlər və yeni dövrlərdə Avropada təriqətçilərə və bidətçilərə tutulan amansız divanlar terrorçuluğun, xüsusilə dövlət terrorizminin qanlı səhifələri kimi tarixin səhifələrində əbədi qalacaqdır. Təsadüfi deyildir ki, terrorun legitimliyi ilə bağlı mübahisələr xüsusilə yeni dövrdən başlayaraq avropalı mütəfəkkirlərin və hakimiyyət xadimlərinin davamlı müzakirə mövzusuna çevrilmiş, hazırda da davam etməkdədir. Bu prosesdə əvvəlcə dini müstəvidə aparılan müzakirələrdə tiranlıqla mübarizənin legitimliyi, zalım padşahın öldürülüb-öldürülməməsi məsələləri, sonra isə dəniz quldurlarının hərəkətlərinin terrorçuluq aktları kimi qiymətləndirilməsi və buna qarşı mübarizənin yolları önə çəkilmişdi. Məhz bunun nəticəsində qərara alınmışdı ki, XIX əsrə qədər terrorizm bəzi dövlətlər tərəfindən dəniz quldurlarından istifadə edilməklə digər dövlətlərə qarşı həyata keçirilirən fəaliyyət növüdür.

Türkiyəli müəlliflərdən bəziləri qeyd edirdilər ki, Avropa dövlətlərinin modernləşmənin əvvəlində yəhudilərə qarşı həyata keçirdikləri təcridçilik və ayrı-seçkilik siyasəti Qərbin dövlət terrorizmi siyasətinin bir forması hesab edilməlidir. Bu dövrdə İslamın dözümlülük və sıxıntı içində olan bütün insanlara yardım prinsiplərinə əməl edən Osmanlı İmperatorluğunun sultanları sıxıntı içərisində olan yəhudilərin bir çoxunu öz torpaqlarında yerləşdirmiş və xristian təbəələrinə verdikləri kimi, onlara da sərbəst yaşamaq imkanı vermişdilər. Avropa olkələri antisemitizmi dövlət siyasəti səviyyəsinə yüksəldərək yəhudilərə qarşı kütləvi şəkildə soyqırım siyasəti həyata keçirirdilər. Yəhudilərə qarşı terror siyasəti Fransa, Almaniya və çar Rusiyasında xüsusilə amansız şəkildə həyata keçirilmiş, faşist Almaniyasının həyata keçirdiyi "xolkost" siyasəti yəhudilərin kütləvi şəkildə məhv edilməsinə gətirib çıxarmışdı [2, s.106].

Rusiya imperiyasında terrorizm ifrat formada dövlət siyasəti kimi XVI əsrdə həyata keçirilmişdi. Məlum olduğu kimi, monqol-tatar istilasından sonra Rusiya aristokratiyasının tərkibi ciddi şəkildə dəyişmişdi. Belə ki, Rusiyada mərkəzləşmiş dövlət aparatının formalaşdığı dövrdə feodal anarxiyası vahid dövlətin yaradılması yolunda ciddi maneəyə çevrilmişdi. Rus çarları XV-XVI əsrlər boyu feodal özbaşnalığına qarşı amansız mübarizə aparmalı olmuşdular. XVI əsrin ortalarında, Şimal müharibəsi başladıqdan sonra yerli feodalların və hərbi aristokratiyanın xəyanəti müharibə cəbhələrində Rusiyanın məğlubiyyətini qaçılmaz etmişdi. Yaranmış vəziyyətdə Rusiya çarı IV İvan Qroznı aristokratların, seperatçı feodalların və ruhanilərin müqavimətini qırmaq üçün 1564-1572-ci illərdə "Opriçnina" siyasətini həyata keçirmiş və eyni adlı gizli polis terror təşkilatı yaratmışdı. Məhz bu təşkilatın vasitəsi ilə hakimiyyətə müxalif qüvvələrin müqaviməti qırılmış, gizli şəkildə həyata keçirilmiş qətllər və çoxlu terror aktları nəticəsində güclü və mərkəzləşmiş dövlət aparatı yaradılmışdı [12, s.94-95].

Terrorizmin inkişaf tarixinin araşdırılması, onun ayrı-ayrı epizodlarının öyrənilməsi və ümumiləşdirmələrin aparılması antiterror fəaliyyətinin təşkili və həyata keçirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Təsadüfi deyildir ki, müasir dövrdə terrorizmin inkişaf tarixinin öyrənilməsi hər zaman olduğundan daha aktualdır. Belə ki, XVIII əsr Fransa burjua inqilabından sonra "terrorizm" anlayışının bütün xalqların leksikonunda tədricən vətəndaşlıq qa-

zandığını görürük. Bu mənada 1789-1794-cü illər Fransa inqilabından sonrakı dövr terrorçuluğun intişarı baxımından tarixə düşdü. Fransada terror rejimi 1793-cü ilin martından 1794-cü ilin iyuluna qədər olan dövrdə həyata keçirilmişdi və bu dövrü tədqiqatçılar birmənalı olaraq "terror rejimi" dövrü adlandırırdılar. M.Robespyerin rəhbərliyi altında yaradılmış Yakobin diktaturasının 13 aylıq hakimiyyəti dövründə siyasi rejim terrorizm yolu ilə bu rejimə qarşı duran qüvvələri sıradan çıxarmaq, rəqiblərini qorxutmaq və siyasi hakimiyyətlərini möhkəmləndirmək taktikası yeridərək cəmiyyəti xof içərisində saxlamışdılar [7, s.52-53]. Məsələ burasında idi ki, yakobinlər "terrorçu" titulunu apardıqları ideoloji təbliğat nəticəsində Fransa ictimaiyyətinə müsbət mənada qəbul etdirməyə nail olmuşdular. Xalq terrorçuluğu əksinqilaba qarşı mübarizə üsulu kimi qəbul etmişdi.

Yakobin diktaturasının terror siyasəti zərurətdən yaranmışdı, ilk növbədə Fransanın daxili və xarici düşmənlərinə qarşı çevrilmişdi. Hökumət terror yolu ilə ölkədə daxili sabitliyi saxlamağa, sosiai-iqtisadi vəziyyətin pisləşməsinin qarşısını almağa çalışırdı. Bu prosesdə inqilabın əleyhinə olan 300 min insan həbs edilmiş, onlardan 17 min nəfəri isə edam olunmuşdu. Təsadüfi deyildi ki, terror sözü Avropada ümumişlək anlayış çevrilmiş və Yakobin hakimiyyəti "terror hökmranlığı" adlandırılmışdı. Bununla belə, nə M.Robespyer, nə də onun yaxınları istədiklərinə nail olmadılar və özləri başladıqları terrorun qurbanı oldular. Belə ki, 1794-cü il iyulun 27-də baş vermiş dövlət çevrilişi nəticəsində M.Robespyer başda olmaqla diktaturanın bütün xadimləri "gilyotinə verilərək" (fransız həkiminin adı ilə adlandırılan "başkəsən" aparat) edam edildilər [7, s.60-61].

Müstəmləkə müharibələrinin başladığı və dünyanın bölüşdürülməkdə olduğu XVI-XIX əsrlərdə həm müstəmləkəçi dövlətlər, həm də onlara qarşı mübarizə aparan müstəmləkə xalqları nizamsız şəkildə terror aktlarından istifadə etməyə başladılar ki, bu əslində terrordan kütləvi şəkildə istifadə edilmə demək idi. Müstəmləkə müharibələrini başlayan Avropanın İngiltərə, İspaniya, Portuqaliya, Fransa və s. dövlətləri terrorçuluqdan həm əraziləri işğal etmək, həm də işğal rejimini möhkəmləndirmək məqsədi ilə istifadə edirdilər.

XIX əsr bəşəriyyət tarixində terrorçuluqdan sistemli şəkildə istifadənin başlanğıcı kimi də qeyd edilə bilər. Belə ki, əsrin ikinci yarısından etibarən terrorizmdən intensiv şəkildə istifadə edilməsinə başlanmışdı. Bu dövr üçün ictimai şüur cəmiyyətdəki haqsızlıqlara və ədalətsizliklərə qarşı mübarizənin başlıca yolu kimi terrorizmi seçmişdi. Belə ki, Avropada və Rusiyada meydana çıxan anarxist cərəyanlar daha yaxşı cəmiyyət yaratmaq üçün dövlət quruluşunun dəyişdirilməsinə önəm verir və "pis hökmüdarı yaxşısı" ilə əvəz etmək üçün terror yolunu daha münasib hesab edirdilər. Təsadüfi deyildi ki, təxminən yarım əsrə yaxın dövr ərzində terrorçu təşkilatları Avropa və Rusiyada çoxsaylı terror hadisələri törətmiş, dövlət başçılarını, xalqın nifrət etdiyi məmurları fiziki cəhətdən məhv etmişdilər. Bununla belə, terror yolu ilə nə avropalı anarxistlər, nə də rus bakuninçiləri öz istəklərinə nail ola bilmədilər. Əksinə terrorizmə qarşı dövlət səviyyəsində mübarizənin başlanması məhz bu dövrə aiddir. Almaniyanın kansleri O.Bismarkın müəllifi olduğu və 12 il üçün nəzərdə tutulmuş "Sosialistlərə qarşı Müstəsna qanun"un qəbul edilməsi çox tezliklə terrorizmdən siyasi təzyiq vasitəsi istifadə olunmasına son qoyulmasına gətirib çıxardı.

Qeyd edək ki, rus anarxistləri çar hakimiyyətini devirmək üçün, irlandlar, serblər və makedonlar isə müstəqillik üçün terror üsullarından istifadə edirdilər.

Rusiyada XIX əsrin 60-cı illərində təşəkkül tapmış "Narodnaya Volya" (Xalq İradəsi) təşkilatı 1878-ci ilin yanvarından 1881-ci ilin martına qədər olan nisbətən qısa bir müddət ərzində əhəmiyyətli təsirə malik terror əməlləri həyata keçirməklə sonrakı dövrün terrorçularına örnək olmuşdular. Lakin nə 1881-ci ildə Rusiya çarı III Aleksandrın, nə də 1914-cü ildə Avstriya-Macarıstan imperiyasının varisi Frans-Ferdinandın terror yolu ilə öldürülməsi, Almaniyanın kansleri O.Bismarka edilən sui-qəsd istənilən nəticəni vermədi [10, s.217]. Bununla belə, məhz terror əməllərinin həyata keçirilməsindən sonra terrorçuların ələ keçirilməsi dövlətləri birlikdə fəaliyyətə vadar etmişdi. Rusiyada fəaliyyət göstərən bakuninçilər və xalqçılar, avropalı anarxistlər terrorizmi dövlət başçılarına və məmurlarına qarşı həyata keçirilən əməllər kimi başa düşürdülər.

Terrorizmə qarşı mübarizənin sistemli və məqsədyönlü şəkildə aparılmaması bu fəsadın yayılmasında və oxşar nümunələrin meydana gəlməsində mühüm rol oynamışdı. Belə ki, müxtəlif ölkələrdə təşəkkül tapan terror təşkilatları əsasən Rusiyanın xalqçı terror təşkilatlarının nümunəsində qurulur və yayılırdı. Təsadüfi deyildi ki, çox tezliklə terror Rusiyadan keçərək Avropaya və Osmanlı torpaqlarına yayılmışdı. Rusiya xalqçılarının terror təcrübələri hətta ABŞ-da da öz təsirini göstərmişdi. "Narodnaya Volya"çıların qısa müddətdə həyata keçirdiyi terror aktları bütün dünyada əks-səda doğurmuş və mükəmməl terror qruplaşması kimi şöhrət qazanmışdı. Ümumiyyətlə, 1865-1905-ci illər arasındakı terror aktları nəticəsində bir çox dövlət başçıları, hərbçilər və məmurlar həlak olmuş, terrorizm inqilabi-siyasi və sosial dəyişikliklərin ən yaxşı yolu kimi Qərbi Avropada və Rusiyada ictimai fikrə hakim olmuşdu [3, s.906].

XIX əsrdə baş vermiş terror aktlarının bir çoxunda dövlət rəhbərlərinin hədəfə götürülməsi ilk növbədə o dövrkü terrorçuların dünyagörüşü ilə bağlı idi. Məlum olduğu kimi, dövlət başçılarının öldürülməsinin icazəli olması fikri xristianlığın müqəddəs kitabı olan "İncil"dən qaynaqlanır. Həmin kitabdakı ayələrin birində "Qılınc götürənlər qılıncla həlak olacaqlar" fikri (Matta 26:52) yer almışdı ki, xristian terrorçular həmin ayədən çıxış edirdilər. Məhz buna əsasən terror aktlarına dini əsas verilmişdi. Əsrin son onilliyində İtaliya kralı I Umberto, Avstriya-Macarıstan imperatoru Elizabet, Fransa prezidenti Karno və ABŞ prezidentləri Avraam Linkoln və Mak Kinli terrorun qurbanı olmuş dövlət başçılarıdır. Bütün bunlar terror aktları kimi ümumiyyətlə anarxistlər tərəfindən həyata keçirilmişdi [3, s.911].

ABŞ-da 1861-1865-ci illər İkinci vətəndaş müharibəsi zamanı ilə eyni dövrdə qurulan Ku Kluks Klan təşkilatı bu dövlətdə ilk terror təşkilatı hesab olunur. 1890-cı illərdə Uzaq Şərqdə ortaya çıxan və dünyagörüşü baxımından Batinilərə bənzəməsi ilə diqqət çəkən Hindistan Azad Qardaşlıq Təşkilatı İngiltərənin nəzarətində olan müstəmləkə hökumətinə qarşı terror siyasətini həyata keçirirdi və bir neçə ingilis məmurunu qətlə yetirmişdi Avstriya arxdukesi F.Ferdinandın Sarayevoda öldürülməsi Birinci dünya müharibəsinin başlamasına və daha sonra coğrafi sərhədlərin və rejimlərin köklü şəkildə dəyişməsinə səbəb olduğu üçün tarixin ən təsirli terror aktı kimi göstərilir. Sarayevo suiqəsdi çox dəqiq hesablamalarla planlaşdırılmışdı. Belə ki, serblər Bosniya-Hersoqovinanın Avstriya-Macarıstan imperiyası tərəfindən ilhaqını qəbul edə bilmədikləri üçün şahzadə F.Ferdinandı qətlə yetirməklə eyni sülalə tərəfindən idarə olunan imperiyanı parçalamağı nəzərdə tutmuşdular. Hadisədən dərhal sonra Avstriya-Macarıstan Almaniyanın dəstəyi ilə Serbiyaya müharibə elan etmişdi ki, bunun nəticəsi bütün dünya üçün fəlakətli oldu.

Müxtəlif siyasi məktəb və nəzəriyyələrdə terrorizmə ictimai haqsızlıq və ədalətsizliklərə qarşı mübarizə kimi yanaşmanın da mövcud olduğunu görürük ki, belə münasibət əsasən solçu siyasi baxışlarda yer almaqdadır. Yaxın Şərqin müsəlman ölkələrində ictimai-siyasi fikir Qərbdə terrorçu təşkilat hesab edilən Həması, Hizbullahı, habelə xusiləri İzrailin ədalətsizliklərinə qarşı mübarizə aparan qüvvələr kimi dəstəkləyirdi. Aparılmış təhlil bizə belə nəticəyə gəlməyə imkan verir ki, əgər I dünya müharibəsinə qədər solçu siyasi baxışlar terrorizmi bir hərəkət forması kimi görsələr də, bu dövrdən sonra terror təşkilatlarının xüsusilə sağçı və millətçi/separatçı qrupların dəstəyini aldığı müşahidə edilməkdədir [16, s.48] ki, buna alman faşistlərinin bütün Avropada həyata keçirdikləri terror siyasəti əyani sübutdur. Bəhs edilən dövrdə Almaniya və Rusiya kimi totalitar rejimlərdə terror faktiki olaraq dövlət siyasəti kimi, bolşeviklərin hakimiyyəti ələ aldığı Rusiyada habelə "qırmızı terror" siyasəti kimi həyata keçirilmişdi. Bu ölkələrdə həbslər, işgəncə və edam kimi terror aktları heç bir hüquqi məhdudiyyət olmadan ictimaiyyəti qorxutmaq, onları milli ideologiyanı, dövlətin bəyan etdiyi iqtisadi, sosial və siyasi məqsədləri mənimsəməyə məcbur etmək məqsədi ilə həyata keçirilirdi. Əgər Almaniyada A.Hitler birinci dövrdə demokratik seçkilərlə hakimiyyətə gəlmişdisə, ikinci seçkilərdən sonra Konstitusiyanı dəyişərək təkpartiyalı sistemə keçmişdi. Bu keçid dövründə siyasi rəqiblərini terror yolu ilə sıradan çıxaran Hitler dövlət terrorizminin ən ciddi nümunələrini praktiki olaaraq nümayiş etdirdi. XX əsrin 20-ci illərindən sonra intensivləşən terror aktları

Almaniya, İtaliya və İspaniyanın demokratik sistemlərini pozdu [17, s. 126-132]. Rusiyanın sovet dövrünün totalitaar sistemi isə terrorçu dövlətin etalonu kimi götürülə bilər.

Uzaq Şərq və Cənub-Şərqi Asiya ölkələrində terrorizmə dair çoxsaylı nümunələrə rast gəlmək mümkündür. Bu baxımdan Yaponiyada, Vyetnamda, Çində, Laosda, Tailandda, Kambocada və s. ölkələrdə terroru mübarizə üsulu kimi seçən çoxsaylı sekta və təşkilatlar fəaliyyət göstərirdilər. Çində respublika rejimi qurulduqdan sonra 1921-ci ildən etibarən başlayan və 1949-cu ildə kommunist rejimi qurulana qədər davam edən vətəndaş müharibəsində iştirak edən bütün qüvvələr, habelə Yaponiya terror taktikasından geniş istifadə etmişdilər. Bu müharibənin gedişində ölkədə xeyli sayda insanın ölümü ilə nəticələnən terror aktları həyata keçirilmişdi. Ümumiyyətlə, sonrakı hadisələrlə birlikdə Çində terror dövrünün yüz ilə yaxın davam etdiyini qeyd edə bilərik.

Afrika və Yaxın Şərqdə də yüzilliklər boyu terror faciələri törədilmiş, insanlar qətlə yetirilmiş, müstəmləkəçiliyə qarşı müqavimət hərəkatları qan içində boğulmuşdu. XX əsrin 30-40-cı illərində ərəb ölkələrində terrorizmi ictimai ədalətsizliklərə və imperialist dairələrə qarşı mübarizə üsulu seçən qrup və təşkilatlar meydana gəlməyə başladı. Belə ki, Misirdəki “Müsəlman qardaşları”, "Gənc zabitlər" və “Gənc Misir” təşkilatları terrorizmi başlıca mübarizə üsulu kimi seçmişdilər. Yəhudi təşkilatlarından "İşuv", "Xaqanlar", “İrgun Zvai Leumi” və “LEHI” Fələstində terror yolu ilə İzrail dövlətinin yaradılması uğrunda mübarizəyə başlamış, Fələstiniin ərəb əhalisinə qarşı etnik təmizləmə, soyqırım və deportasiya siyasətini həyata keçirilmişdi ki, bu günə qədər davam etməkdədir. Qərb geosiyasi nüfuz dairələri əldə etmək və enerji mənbələrinə sahiblənmək uğrunda mübarizəni anti-terrorizm siyasəti adı altında məhz Yaxın Şərq ölkələrində həyata keçirməyə başlamışdı.

XX əsrin 30-cu illərinin əvvəllərində Almaniyada hakimiyyət başına gələn faşistlər terroru bütün müxalif və rəqib qüvvələrə qarşı ideoloji və praktiki mübarizə silahına çevirmişdilər. Almaniyaya qarşı Şərq paktının bağlanmasına imkan verməк istəməyən faşistlər 1934-cü il oktyabrın 9-da kod adı "Tevton qılıncı" olan əməliyyatı həyata keçirməklə Fransanın Xarici işlər naziri Lui Bartunu və Rumınıya kralı I Aleksandrı terror yolu ilə aradan götürərək paktla bağlı danışıqlara son qoydu. Bu terror aktından sonra Millətlər Liqasının Assambleyasında başlanan debatlar son nəticədə terrorçuluğa qarşı mübarizənin əlaqələndirilməsi ilə bağlı qətnamə layihəsinin hazırlanmasına gətirib çıxarsa da, qəbul olunmadı. Nəzərə alsaq ki, o dövrdə Liqa üzvlərinin sayı 58-ə çatmışdı, deməli, bu layihə terrorizmə qarşı hazırlanmış ilk kollektiv sənəd hesab olunmalıdır [13, s.151-161]. Alman faşizminin terror siyasəti dünyanı ümumplanet miqyaslı yeni müharibəyə gətirib çıxardı ki, fəsadları hələ də davam etməkdədir. Bu müharibə eyni zamanda bəşəri cinayətlərin önlənməsi üçün fəaliyyət birliyi əsasında vahid cəbhədə və ümumi strateji planda aparılmalı olan mübarizənin əhəmiyyətini göstərdi.

Terrorizmin inkişaf tarixinin elmi-praktiki tədqiqi göstərir ki, insanlığı hədələyən bu fenomenlə mübarizə çoxşaxəli şəkildə aparılmalıdır. Bu baxımdan iki istiqamət mühüm əhəmiyyət kəsb edir: ümumi strategiya əsasında anti-terror fəaliyyətinin məqsədyönlü şəkildə aparılması, milli, regional və beynəlxalq səviyyələrdə terrorçuluğa qarşı mübarizənin əlaqələndirilməsi. Təsadüfi deyildi ki, 2005-ci ilin sentyabrında keçirilən beynəlxalq sammitdə BMT Baş Məclisi terrorizmin forma və təzahürlərindən heç birinin qəbuledilməz olduğunu xatırladıb və terrorizmlə mübarizə üzrə beynəlxalq strategiyanın işlənib hazırlanması vəzifəsini üzərinə götürmüşdü. Bu strategiya 2006-cı il sentyabrın 8-də Baş Məclisin A/RES/60/288 saylı qətnaməsinə əsasən qəbul edilmişdi. “BMT-nin Qlobal Terrorla Mübarizə Strategiyası”nın başlıca məqsədi praktiki baxımdan fərdi və kollektiv tədbirlər vasitəsi ilə milli, regional və beynəlxalq səviyyələrdə terrorizmin qarşısını alınması və onunla mübarizə aparmaqdır [14, s.538]. Bununla belə, əgər həmin sənəd antiterror koalisiyasınının möhkəmlənməsini və antiterror əməliyyatlarının nisbi uğurlarını təmin etsə də, mövcud beynəlxalq vəziyyət antiterror sisteminin qurulmasına heç bir zəmanət və ümid vermir.

### Ədəbiyyat siyahısı


1. Akmaral K. Anti Teröristin El Kitabı, Bilge Karınca Yayınları, İstanbul, 2004, s. 26-68
2. Altuğ Y. Terörizm; Dünü, Bugünü, Yarını, İçişleri Bakanlığı Yayınları, Ankara, 1989, s. 35-64
3. Caşin M.H. "Uluslararası Hukuk Açısından Terör ve Organize Suçlar", 21. Yüzyılda Türk Dış Politikası, ed.İdris Bal, 3.b, Alfa Yayınları, Ankara, 2006, s. 904-937
4. Hazir H. Siyasal Şiddet ve Terörizm, Nobel Yayın Dağıtım, Ankara, 2001
5. Qurbanov A. İslam tarixi. B.: 2009, 324 s.
6. Nizamülmülk. Siyasətnamə. B.: Elm, 1989, 212 s.
7. Orucov M.H. 1789-cu il Fransa burjua inqilabının tarixi. B.: ADU nəşri, 1974, 80 s.
8. Varol M.Z. İslam ve Terör, 2023, S:32 (15 Aralık 2003), Ankara, s.37-39
9. Vilkinson P. "Terör ve Terörizm: Kavramlar, Özellikler ve Tipoloji", çev.Talip Kabadayı, Silinen Yüzler Karşısında Terör, der.Cemal Güzel, Ayraç Yayınevi, Ankara, 2002, s.142-162
10. Давудова Е.Терроризм, истоки и эволюция, цели и средства. М.: 2000, s. 23- 29
11. История древнего мира. Ч. П, Греция и Рим. М.: Просвещение, 1981, 431 с.
12. Зимин А.А., Хорошкевич А.Л. Россия времени Ивана Грозного. М.: Наука, 1982, 246 с.
13. Малафеев К.А. Луи Барту - политик и дипломат. М.:: Международные отношения, 1988, 192 с.
14. Сидоренко А. Г., Тихомиров Ю. В. Терроризм и антитеррористическая деятельность в контексте истории и современной геополитики. М.: Кучково поле, 2011, 640 с.
15. Сикарии. Большая советская энциклопедия: [в 30 т.] / гл. ред. А.М.Прохоров. М.: Советская энциклопедия, 1975, с. 478
16. Социальные и психологические проблемы борьбы с международным терроризмом. М.: Наука, 2002. 170 с.
17. Терроризм в исторической ретроспективе и современных условиях. М. : ЮНИТИ-ДАНА, 2019, 479 с.
18. Терроризм и контртерроризм в современном мире: аналитические материалы, документы, глоссарий. Научно-справочное издание /Под общ.ред.акад. О.А.Колобова. М.: Экслит, 2003, 480 с.
19. Чернядьева Н.А. Международный терроризм: происхождение, эволюция, актуальные вопросы правового противодействия. М.: Проспект, 2020, 336 с.


### Summary

**İlkin Ahmadzada**

### Terrorism as an active form of resistance to socio-political contradictions of society

The effectiveness of the fight against international terrorism in modern times has made it necessary to know and apply the importance of how and which methods/means to use against it. This can be achieved by knowing the history of the development of terrorism and making generalizations, as well as by developing general strategies and tactics based on historical experience. We believe that those who consider such research to be inappropriate in the current era of international relations and war/conflicts tearing apart the world community are wrong. At present, all the states that are at war and experiencing conflicts hide their reactionary desires under the name of fighting international terrorism, but regardless of whether they want to or not, they create the practical basis of scientific and theoretical knowledge about the collective basis of the fight against terrorism. Wars and conflicts are not permanent, but experience shows that the fight against terrorism must be sustained. In this regard, the article traces the history of the development

of terrorist activity and makes generalizations that have practical significance in terms of the organization and implementation of anti-terrorist activities.

***Keywords:*** *terrorism, conspiracy, war, conflict, contradiction, anti-terror policy, scientific-theoretical approach, form of struggle against opponents, resistance to injustice, anarchism, colonial occupations, genocide.*

## Резюме

**Илькин Ахмедзаде**

## Терроризм как активная форма сопротивления социально-политическим противоречиям общества

Эффективность борьбы с международным терроризмом в наше время привела к необходимости знать и применять важность того, как и какие методы/средства использовать против него. Этого можно добиться, зная историю развития терроризма и делая обобщения, а также разрабатывая общие стратегии и тактики на основе исторического опыта. Мы считаем, что ошибаются те, кто считает подобные исследования неуместными в нынешнюю эпоху международных отношений и войн/конфликтов, раздирающих мировое сообщество. В настоящее время все государства, воюющие и переживающие конфликты, скрывают свои реакционные стремления под именем борьбы с международным терроризмом, но независимо от того, хотят они того или нет, создают практическую основу научно-теоретических знаний о коллективной основе борьба с терроризмом. Войны и конфликты не вечны, но опыт показывает, что борьба с терроризмом должна быть постоянной. В связи с этим в статье прослеживается история развития террористической деятельности и делаются обобщения, имеющие практическое значение с точки зрения организации и осуществления антитеррористической деятельности.

***Ключевые слова:*** *терроризм, заговор, война, конфликт, противоречие, антитеррористическая политика, научно-теоретический подход, форма борьбы с противниками, сопротивление несправедливости, анархизм, колониальная оккупация, геноцид.*